

*Qələndər Xaçınçaylı*

Bir daha yuxuma girməzsən, mənim
Mən səndən aralı... çox-çox uzağam,
Bir daha yuxuma girməzsən, mənim.
Ruhu çoxdan ölmüş qara torpağam,
Bir daha yuxuma girməzsən, mənim.

Yaddaşdan silinib müqəddəs adın,
Sönüb gözlərimdə ocağın, odun.
O doğma yurd yerim,baba oylağım,
Bir daha yuxuma girməzsən, mənim.

Həyat ucuzlaşıb, gözümdən düşüb,
Bir kişi kəlməsi dilimdən düşüb.
O misri qılıncın əlimdən düşüb,
Bir daha yuxuma girməzsən, mənim.

Səndən uzaq durub doğma cığırlar,
Yolunu yad eldən salıb oğullar,
Unudub torpağı, vətəni onlar,
Bir daha yuxuma girməzsən, mənim.

Dünyamız dəyişib, zaman dəyişib,
Çəkdiyin o yay,ox kaman dəyişib,
İgid oğlun, gözəl qızın dəyişib,
Bir daha yuxuma girməzsən, mənim.

Necə oğul desin mənə öz anam,
Düşməndir yurdunda atın oynadan.
Dərdimə acıyıb, halıma yanan
Bir daha yuxuma girməzsən,mənim.

Bəşərin yazılmış hökmünə bir bax,
Başımız üstündə çoxalıb Allah.
Dünyanın özündən yox olub Allah,
Bir daha yuxuma girməzsən, mənim.

Ədalı, böş hövkəm hey məni yıxır,
Yalan bulud kimi beynimdən axır,
Övladın düşmənin əlini sıxır,
Bir daha yuxuma girməzsən, mənim.

Çünki doğru olub düzə gəlmirəm,
Günahım çoxalıb üzə gəlmirəm.
Tutduğum o haqqa, sözə gəlmirəm,
Bir daha yuxuma girməzsən, mənim.

Yağı- düşəmənlərin gözünü oyan,
Haradadır, o igid, ərənlər, babam?
Olacaq düz sözçün məni qınayan,
Bir daha yuxuma girməzsən, mənim.

Sən məni tək qoyub, hara gedirsən?
Sakit bir üfüqə bənzəyirəm mən,
Sən məni tək qoyub, hara gedirsən?
Günəşun gəlişin gözləyirəm mən,
Sən məni tək qoyub, hara gedirsən?

Buludlar içində batıb qalaram,
Azaram yolumu, yatıb qalaram,
Sinəmə dərdimi qatıb qalaram,
Sən məni tək qoyub, hara gedirsən?

Bu sükut içində ürəyim ölər,
Açılmaz o güllər, solar o güllər.
Gözümün işığı, o nuru sönər,
Sən məni tək qoyub, hara gedirsən?

Ayrılıq kolgəsin üstümə salar,
Qollarım boşalar, gücüm azalar,
Minmə o qatara, uzaq yol alar,
Sən məni tək qoyub, hara gedirsən?

## *Yağış*

Göydən yağış yağır,
Bu yağış deyil,
anamın göz yaşlarıdır.
Axır şəhid oğlunun qəbrinin üstə.
Təbiət də fikrə gedib,
Pianinonun notları üstə
Yanır bəstəkar barmaqları,
Küləklər çalır sinfoniyasını...

***

İnanmıram bu sevginə
Görməyirəm o sevgini,
Gözlərindən yalan deyir.
Odu yoxdur bu sevginin,
Sözlərindən yalan deyir.

Hər baxışın xəyanətdi,
Saxta gülüş kimə lazım?
Hər görüşün cinayətdi,
Mən bunları hara yazım?

İnanmıram bu sevginə,
Arzularım puça döndü.
Vəd verəndə birisinə,
Sənə olan sevgim öldü.

Gözlərindən axan o yaş,
İsitməyir bu qəlbimi.
Ürəyimə basmısan daş,
Kolgəsində bilim səni.

Baxışların nəğmə demir,
Elə baxır bir yad kimi.
Qəlbim ölüb, daha sevmir,
Çoxdan silib, atıb səni.

Artıq çəkil, sən yolumdan,
Umurumda deyil mənim.
Bir qışın sərt soyuğundan
Daha soyuqdur ürəyim.

Hər baxışın xəyanətdi,
Saxta gülüş kimə lazım,
Hər görüşün cinayətdi,
Mən bunları hara yazım?

## *Gəlibsə, tapacaq səni*

İstərsən evdə gizlən,
Çöldə, çəməndə gizlən,
İstərsən bağda gizlən,
Aranda, dağda gizlən
Gəlibsə, tapacaq səni.

İlantək sürünsən də,
Yarılıb yerə girsən,
Dumana bürünsən də,
Cənnətdə gizlənsən də
Gəlibsə, tapacaq səni.

İstər qələmdən gizlən,
Qöca nənəmdən gizlən,
İstər babamdan gizlən,
Doğma balamdan gizlən,
Gəlibsə, tapacaq səni.

Üzünü tut Allaha,
Ona yalvar bir daha,
Dünya batıb günaha,
Qurtarmaz ondan yaxa,
Gəlibsə, tapacaq səni.

## *O Kəndimdir*

Bahar gəlib,novruz gülü açıbdı,
Bənovşələr köl dibindən hay verir.
Könlüm quşu görən hara uçıbdu?
Durnalar da nəğəməsindən pay verir.
Ətirlənib,o dağ-dərə,çöl-çəmən,
Günəş saçın səpələyib torpağa.
Göz oxşayır, könüllərdə yasəmən,
Yaşıl zəmi bəzək verir oylağa.

Dağ başında qartalları qıy vurur,
Kəklikləri qayasında səkir, hey!
Ağuşunda yaşıl orman uyuyur,
Bir gözəlin baxışları çəkir, hey!

Səmasında,şimşəkləri göz vurur,
Fatma nənəm xəlisini toxuyur.
Bulaqları,çayları gur, cağlayır,
Bülbülləri gül üstündə oxuyur.

Səhər-səhər əsir həzin küləklər,
Dağlarından gələn sərin mehə bax.
Bir incidir,o güllər, o, çiçəklər,
Üstündəki göz yaşına, şehə bax.

O kəndimdir, görün necə görünür?
Aralıdan dağlar basır sinəmə.
Ürəyimdir, parçalanır bölünür,
Gedəmmirəm,yol gözləyən kəndimə.

## *Nələr deyir*

Uzaq olub o doğma yurd,
Yadlaşıb öz torpağımda.
Bir ayrılıq həsrəti var,
Cadar-cadar dodağımda.

Mənim həsrət gözlərimə
Uca dağlar necə baxır,
Hər daşından, qayasından
Şəhidlərin qanı axır.

Ürəyimdə təpərim yox,
Qeyrətim yox gedim ora.
Düşmənləri qovum ordan.
Sahib çıxım torpaqlara.

Yanağımdan damla-damla
Süzüb axır göz yaşlarım.
Gedən yolçu məni anala,
Nələr deyir baxışlarım…

## *Ucuzlaşır*

Bir xalqın əvvəlcə sözü,
Sonra özü,
Daha sonra dövləti,
Vətəni ucuzlaşır.
Get-gedə dili yadlaşır.
Axırda da Vətən torpağı,
Gələcək nəsil də
Bu ucuzluğun qurbanına çevrilir.
Çünki yalan üstündə
Həqiqət bərqərar ola bilməz.

## *Azadlıq*

Azadlıq- bir qurtum şərbət,
Azadlıq -bir damla zəhərdir,
Buna nail ola bilsən.
Azadlıq qapıları
Günəşə açılan səhərdir,
O səhərin işığına gedən yoldur...
Bu yolda ölə bilsən,
Bu yolda qala bilsən
O sənin azadlığındır.
Bizdə Azadlıq meydanı var.
"Azadlıq!", "Azadlıq!" deyə-deyə
O meydana getdik.
Meydan "azad" oldu,
Ancaq biz azad ola bilmədik!

## *Təbriz*

Oyaq Təbriz, oyaq Təbriz,
Yuxun çəkilib ərşə sənin.
Başın üstündə duman, çən,
Sən səsini çıxardanda
Bir kimsə durmurdu dayaq Təbriz..
Namərd dolaşır torpağın üstündə,
Demokl qılıncı başın üstündə,
Sağını-solunu kəsdikcə kəsir, Təbriz.
Neçə ildir Qarabağ düşmənə əsir, Təbriz
Qoca Şərqin ağrısı, fəryadı,
Səbrini kəsir.
Oyaq Təbriz, oyaq Təbriz
Neçə yerə bölünübdür
Azərbaycan, bütöv bədən.
Aciz qalıb məmləkətim
Ovuc boyda fars əlində.
Nə dilin var, nə məktəbin
Doğma ana vətənində.
Oyaq Təbriz, oyaq Təbriz
Sinəsi dağlı anam.
Haqq üstündə asılıbdır
Neçə igid, cəsur balan.
Amalında Səttar ruhu,
Azadlığın qoy göyərsin.
Koroğlutək çək nərəni,
Azad elə torpağını,
Vətən elə hər dağını?
Hər daşını.